Bilin ki, bir kişinin ona məndən çatan hədis barədə öz oturacağının qoltuğuna rahat söykənərək belə söyləyəcəyi zaman yaxındadir: "Bizimlə sizin aranızda Allahın kitabı var

Miqdəd bin Madikərib (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Bilin ki, bir kişinin ona məndən çatan hədis barədə öz oturacağının qoltuğuna rahat söykənərək belə söyləyəcəyi zaman yaxındadir: "Bizimlə sizin aranızda Allahın kitabı var, orada nəyi halal gördüksə, onu halal bilərik, haram gördüyümüzü isə haram bilərik". Bilin ki, Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) haram etdikləri Allahın haram etdikləri kimidir".

[Səhih] [Əbu Davud, Ət-Tirmizi və İbnu Məcə rəvayət etdi]

Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, bir qrup insanın toplaşdığı məclisdə, onlardan birinin öz oturacağının qoltuğuna söykəndiyi halda Peyğəmbərdən (Allahın salavatı və salamı onun üzərinə olsun) ona bir hədis deyildikdə, o hədis barədə: "Bizimlə sizin aranızdakı məsələlərdə hökm verən Qurani Kərimdir və o bizə kifayətdir, orada nə halal tapsaq ona əməl edərik və nə haram görsək ondan uzaqlaşarıq" deməsi zamanı artıq yaxınlaşmışdır. Sonra Peyğəmbərimiz (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, onun sünnəsində haram etdiyi və ya qadağan etdiyi hər şey Allahın haram etdiyinin hökmü kimidir, çünki o, öz Rəbbinin hökmlərini çatdırır.

https://sunnah.global/hadeeth/az/show/65005

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee